*Tarix: ____ Dekabr __ 2025-ci il.*
***SənədNo: 021-202088026***

# XİDMƏT MÜQAVİLƏSİ

Bu müqavilə ilə bir tərəfdən "**www.workay.net**" (bundan sonra "ŞİRKƏT" adlanacaq), digər tərəfdən _____________________________ Ş/V AZE_____________________(bundan sonra SİFARİŞÇİ adlanacaq) arasında aşağıdakı şərtlər daxilində bağlanmışdır.

Bu Müqavilədə ŞİRKƏT və SİFARİŞÇİ ayrı-ayrılıqda " Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq.

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1 Hazırkı müqavilə ilə ŞİRKƏT SİFARİŞÇİYƏ aşağıdakı xidmətləri göstərəcək: ABŞ ölkəsinə vizanı sponsorluq edən Amerika Birşləşmiş Ştatlarına sənədlərin və məktubların, hüquqşunaslar tərəfindən alınmasına dair xidmətlər

1.2 Viza almaq üçün bütün lazım olan məsləhətlərin verilməsi

1.3 Viza almaq üçün tələb olunan sənədlərin düzgün formada hazırlanmasında köməklik.

1.4 SİFARİŞÇİ üçün onlayn ərizə formasının doldurulması və viza görüşünün alınması.

1.5 SİFARİŞÇİNİN öz hesabına təyyarə biletinin alınmasına köməklik göstərmək.

1.6 SİFARİŞÇİNİN Amerika Birləşmiş Ştatlarında qarşılanması və iş yerinə (yaşayış yerinə) yerləşdirilməsini həyata keçirmək.

1.7 SİFARİŞÇİNİN ABŞ-da işlə təmin edilməsi.

1.8 Sənədləşmə proseduru zamanı heç bir nəqliyyat xərci ŞİRKƏT tərəfindən ödənilmir.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

2.1 Göstərilmiş xidmətlərin xaricində ortaya çıxan problemlərə görə ŞİRKƏT məsuliyyət daşımır. Həmçinin SİFARİŞÇİNİN ABŞ-da olduğu müddətdə baş verə biləcək hər hansı bədbəxt hadisə (qəza, xəsarət, xəstəlik) və ya ölüm hallarında ŞİRKƏT heç bir məsuliyyət daşımır.

2.2 SİFARİŞÇİ ABŞ-a getdikdən sonra ŞİRKƏTİN ona ilkin olaraq təklif etdiyi vakansiya üzrə minimum 2 (iki) ay və maksimum 1 (bir) il ərzində işləməyi öhdəliyinə götürür və razılıq verir.

İCRAÇI___________ SİFARİŞÇİ________________

Nümunə

2.3 ŞİRKƏTİN SİFARİŞÇİNİN getdiyi ölkədə ona nəzarət etmə, baş çəkmə və ya şəxsi problemləri ilə maraqlanma öhdəliyi yoxdur.

2.4 SİFARİŞÇİ bu müqavilədə nəzərdə tutulan şərtlər daxilində verilən xidmətlərlə əlaqəli olaraq doldurduğu bütün müraciət blanklarında və bütün prosedur ərəfəsində özü ilə əlaqəli verdiyi məlumatların doğruluğunu təsdiq edir. SİFARİŞÇİNİN vizaya müraciət ərəfəsində və ya ABŞ-da olduğu vaxt ərzində verdiyi məlumatlarda uyğunsuzluq aşkar edilməsi və ya məlumatların doğru olmaması halında meydana gələcək mülki, inzibati və cinayət məsuliyyəti SİFARİŞÇİNİN özünə aiddir

2.5 ŞİRKƏT, bu müqavilə imzalandığından 5 (beş) ay ərzində ABŞ-dan sənədləri SİFARİŞÇİNİN adına Azərbaycan Respublikasına göndərilir.

**3. TƏNZİM EDƏN HÜQUQ VƏ HÜQUQLA UYĞUNLUQ**

3.1 Bu müqavilə və müqavilədə əksini tapmayan müqaviləyə aid digər məsələlər Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənəcəkdir.

**4. FORS-MAJOR**

4.1 Tərəflərdən heç biri bu müqavilə üzrə öhdəliklərinin fors-major şəraiti nəticəsində yerinə yetirilməməsinə görə məsuliyyət daşımır, o şərtlə ki, həmin tərəf digər tərəfə fors-major şəraitin yaranması barədə belə bir şərait yarandığı gündən 7 ( yeddi) iş günü ərzində şəraitin yaranması və bu müqavilə üzrə öhdəliklərinin yerinə yetirməsinə təsiri barədə yazılı bildiriş göndərsin. Bu bildirişə fors-major şəraitini yaranmasını təsdiq edən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş sənəd əlavə olunmalıdır.

4.2 Fors-major şəraiti dedikdə elan olunmuş və ya faktiki müharibə, epidemiya, epizotiya, blokada, zəlzələ, sel, yanğın və digər təbii fəlakətlər, həmçinin tərəflərin iradəsindən asılı olmayan və bu müqavilə imzalandığı tarixdə qabaqcadan görülə və qarşısı alına bilməyən şərait nəzərdə tutulur.

4.3 Fors-major şəraiti yarandığı təqdirdə bu müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi şəraitin davam etdiyi bütün müddət ərzində təxirə salınır.

4.4 Fors-major şəraiti 1 (bir) ay davam edərsə hər hansı tərəf digər tərəfə yazılı bildiriş göndərib bu müqaviləyə dərhal xitam verə bilər.

İCRAÇI____________ SİFARİŞÇİ__________________

Nümunə

## 5. MƏXFİLİK

5.1 Tərəflər bu müqavilə çərçivəsində əldə etdikləri onlara aid kommersiya sirri təşkil edən məlumatları tam məxfi saxlayır və digər tərəfin qabaqcadan yazılı razılığı olmadan üçüncü tərəfə yaymamağı öhdələrinə götürürlər və bununla bağlı bir-birilərinin qarşısında məsuliyyət daşıyırlar.

## 6. MÜBAHİSƏLƏRİN HƏLLİ

6.1 Tərəflər bu müqavilədən irəli gələn bütün mübahisə və anlaşılmazlıqları ilk növbədə danışıqlar yolu ilə həll edəcəklər.

6.2 Danışıqlar nəticə vermədikdə isə bu müqavilədən irəli gələn bütün mübahisə və anlaşılmazlıqlar baxılmaq və qəti həll edilmək üçün Azərbaycan Respublikasının Səlahiyyətli məhkəmələrinə təqdim ediləcək.

## 7. ÖDƏMƏ ŞƏRTLƏRİ

7.1 Bu müqavilədə nəzərdə tutulan xidmətlər üçün _______ manat məbləğində muzd müəyyən edilir. SİFARİŞÇİ bu məbləğin _______ manat hissəsini ŞİRKƏTƏ müraciət edərkən ödəmişdir.

7.2 SİFARİŞÇİNİN işə qəbul sənədi ABŞ dövləti tərəfindən təsdiqləndikdə və ondan SİFARİŞÇİ viza ala bilmədiyi təqdirdə SİFARİŞÇİNİN ŞİRKƏTƏ ödədiyi məbləğ SİFARİŞÇİ Yenidən vizaya müraciət üçün xidmətlərimizdən ödənişsiz müraciətlər edir.

Xüsusi Qeyd: SİFARİŞÇİ viza almadığını təsdiqləyən sənədi ŞİRKƏTƏ təqdim etməlidir.

7.3 SİFARİŞÇİ:

7.3.1 Viza aldıqdan sonra hər hansı bir səbəbdən ABŞ-a getməkdən imtina edərsə;

7.3.2 Viza alınması prosesi müddətində istənilən səbəbdən müraciətini könüllü dayandırarsa;

7.3.3 Amerika Birləşmiş Ştatlarına getdikdən sonra könüllü şəkildə hər hansı bir səbəbdən müqaviləyə xitam vermək istəyərsə, ŞİRKƏT heç bir məbləği geri ödəməyəcəkdir;

Nümunə

İCRAÇI____________ SİFARİŞÇİ__________________

7.4 SİFARİŞÇİ viza almazdan əvvəl və viza alınma prosesi zamanı hər hansı bir səbəbdən ABŞ getməkdən imtina edərsə və ya müraciətini könüllü dayandırarsa, şirkətin xidmət haqqını tam ödəməkdə məsuldur.

7.5 SİFARİŞÇİ iş dəvətnaməsi gəldikdən sonra hər hansı bir səbəbdən ABŞ-a getməkdən imtina edərsə, şirkətin xidmət haqqının qalan məbləğininin yarısını ödəməkdə məsuliyyət daşımır.

7.6 SİFARİŞÇİ, səfirlikdə yalnış məlumat verərsə, şəxsi və ya ABŞ səfirliyində əvvəlki müraciətlərindən qaynaqlanan səbəblərdən viza ala bilməzsə ŞİRKƏT heç bir məbləği ödəməyəcəkdir. Viza almağda Sifarişçiyə xidmətlərə davam edəcəkdir.

**8. DİGƏR ŞƏRTLƏR**

81. Bu müqavilə, imzalandığı gündən qüvvəyə minir və imzalandığı gündən 5 ay ərzində qüvvədə qalır.

8.2 Bu müqaviləyə bütün Qoşmalar və əlavə razılaşmalar, əlavə və dəyişikliklər yalnız yazılı şəkildə olduğu və hər iki Tərəfin səlahiyyəti nümayəndəsi tərəfindən imza və möhürlə təsdiq edildiyi təqdirdə hüquqi qüvvəyə malikdir. Bu müqaviləyə aid bütün qoşmalar və əlavə razılaşmalar, əlavə və dəyişikliklər onun ayrılmaz tərkib hissəsidir.

8.3 Bu müqavilə SİFARİŞÇİ və ŞİRKƏT arasında hər ikisi eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib olunmuşdur, imzalanmışdır, nüsxələrdən biri SİFARİŞÇİDƏ, digəri isə ŞİRKƏTDƏ saxlanılır.

| | |
|---|---|
| "Workay.net" şirkətinin direktoru. | SİFARİŞÇİ |
| AD: _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ | AD: _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ |
| ________________________ | __________________________ |

**M.Y.**



Nümunə